İqtisadiyyat.- 2023.- 25-31 may.



Qarabağın görkəmli simaları

# Cəlal Bərgüşad (1924-1996)

***Görkəmli Azərbaycan nasiri Cavadov Cəlal Novruz oğlu (Cəlal Bərgüşad) 1924-cü il iyunun 22-də Azərbaycanın Qubadlı rayonunun Qəzyan kəndində anadan olmuşdur.*** Orta təhsilini Qubadlı kəndində fəhlə-gənclər məktəbində almış, II Dünya müharibəsində iştirak etmiş, 1943-cü ildə ağır döyüşlərin birində kantuziya aldığına görə ordudan tərxis edilmişdir. Bundan sonra o, 1943-1946-cı illərdə Qubadlı rayon daxili işlər şöbəsində VAQ müdiri işləmişdir. 1946-cı ildə onun ***"Cənub taydan əsən meh"*** adlı ilk şeiri də Qubadlıda çıxan ***"Avanqard"*** qəzetində dərc edilmişdir. O, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir. 1951-ci ildə ***"Azərbaycan pioneri"*** qəzeti redaksiyasına ədəbi işçi təyin olunmuşdur.



1958-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində böyük redaktor vəzifəsində işləmişdir. Onun ssenarisi əsasında ***"Çoban Boran"***, ***"Göy göl"***, ***"Suren Adamyan"***, ***"Torpağın ətri"***, ***"Çinar yarpağı"*** televiziya filmləri çəkilmişdir. 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Onun ***"Babək"*** əsəri 1984-cü ildə Tehranda farsca, ***"Qaçaq Nəbi"*** 1979-cu ildə İstanbulda türkcə kütləvi tirajla çap olunmuşdur. Yazıçının ***"Sıyrılmış qılınc"*** tarixi romanı məşhur xalq sərkərdəsi Babək Xürrəminin mübarizələrlə dolu həyatına həsr edilmişdir. Romanda Babəkin azadlıq və istiqlaliyyət uğrunda xilafətə qarşı apardığı bir sıra şanlı döyüşlər təsvir olunur.

Müəllifin 1958, 1970, 1988-ci illərdə nəşr edilmiş ***"Bozatın belində" tarixi romanı, "Gələcəyi yaradanlar" oçerklər kitabı, "Şərq çiçəyi", "Təzə gəlin", "Toydan sonra", "Dərilməmiş salxımlar"*** hekayələr kitabı geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

***Cəlal Bərgüşad xidmətlərinə görə birinci dərəcəli "İkinci Dünya müharibəsi" ordeni (1986) və medallarla təltif edilmişdir.***

Görkəmli yazıçı Cəlal Bərgüşad 1996-cı il iyulun 9-da vəfat etmişdir.